AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

TƏLƏBƏLƏRDƏ ƏMƏK BAZARININ TƏLABATINA UYĞUN SƏRİŞTƏLƏRİN FORMALAŞDIRILMASI İŞİNİN SİSTEMİ (REGİONŞÜNASLIQ İXTİSASI ÜZRƏ)

İxtisas: 5802.01 – "Təhsilin təşkili və planlaşdırılması"

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Gülsabah Natiq qızı Əmirova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

BAKI – 2026

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika elmləri doktoru, professor
Piralı Behbudalı oğlu Əliyev

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
Şəhla Qasım qızı Əliyeva

pedaqogika üzrə fəlsəfə doktoru, dosent
Sevinc Tofiq qızı Vəliyeva

pedaqogika üzrə fəlsəfə doktoru
Zülfiyyə Şəmsəddin qızı Şiriyeva

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: fizika-riyaziyyat elmləri doktoru, professor
Hamlet Abdulla oğlu İsayev

Dissertasiya şurasının elmi katibi: pedaqogika üzrə fəlsəfə doktoru
Gülbəniz Vaqif qızı Sultanova

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor
Akif Nurağa oğlu Abbasov

TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Hazırda əmək bazarında müşahidə olunan sosial-iqtisadi tendensiyalar mühüm dəyişikliklərə – yeni dəyərlər mərhələsinin yaranmasına, gənclərin dövrün tələblərinə uyğun davranış formalarının meydana çıxmasına səbəb olur. Ali təhsil müəssisəsi çərçivəsində tələbənin fəaliyyəti onun əmək bazarı kontekstinə münasibətinin və oradakı gələcək uğurunun formalaşmasına ciddi təsir göstərir. Əmək bazarında üstün rəqabət üçün müəyyən ixtisas sahəsində yalnız formal texniki biliklərə deyil, eləcə də sosial və koqnitiv səriştə və bacarıqlara olan tələbat tələbənin ali məktəb davranışına ciddi təsir göstərir. "Sərt" və "çevik" səriştələrin məhz bu şəkildə əlaqəsi yeni nəsil mütəxəssislərinə qoyulan tələblərə cavab verir.

Hazırda ali təhsil əmək bazarı münasibətlərinin yenidən qurulması kontekstində inkişaf edir. Azərbaycan Respublikasında müəyyən sahələr üzrə mütəxəssislərə əmək bazarında tələbat dinamikası onların ənənəvi hazırlıq sistemi ilə ziddiyyət təşkil edir. Universitet məzununun əmək bazarına adaptasiyası, rəqabətədavamlılıq məsələləri hər konkret ixtisas üzrə dövlət təhsil standartlarına uyğun şəkildə təşkil olunur, bu isə bəzən işəgötürənin gözlədiyi keyfiyyət ilə uyğunlaşmaya bilir. Bütün bu problemlər ali təhsil müəssisələri məzunlarında əmək bazarının tələblərinə cavab verən səriştələrin düzgün təşkili probleminin tədqiqini aktual və zəruri edir. Rəqabətədavamlı şəxsiyyətlərin hazırlanması üçün tələbənin həyat mövqeyinin formalaşması istiqamətləri doğru müəyyən edilməli, müstəqillik, dünyavi dəyərlər kimi mühüm keyfiyyətlərlə yanaşı tənqidi təfəkkür, ünsiyyət və komandada işləmə kimi koqnitiv bacarıqlar da inkişaf etdirilməlidir. Başqa sözlə, ixtisaslı mütəxəssisin hazırlanması şəxsi kamillik olmadan mümkün deyil. Təhsil müddətində psixoloji-pedaqoji dəstəyin əsas vəzifəsi tələbədə özünəinamın aşılanması, müstəqilliyin təşviq edilməsidir.

Respublikamızda regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrdə əmək bazarının tələblərinə uyğun səriştələrin formalaşdırılması problemi xüsusi tədqiqatın obyekti olmmışdır.

Regionşünaslıq sahəsində ixtisaslaşan mütəxəssislər dövlət idarəçiliyi, beynəlxalq əlaqələr, iqtisadiyyat, mədəniyyət və sosial siyasət kimi müxtəlif istiqamətlərdə fəaliyyət göstərirlər. Araşdırmalardan görünür ki, əmək bazarında uğur qazanan mütəxəssislərin formalaşmasında yalnız nəzəri biliklər deyil, eyni zamanda praktik bacarıqlar və səriştə, əsaslı yanaşma mühüm rol oynayır.

Problemin aktuallığı Azərbaycan Respublikasında ali təhsilin təşkili və insan kapitalının inkişafı üzrə qüvvədə olan strateji və normativ sənədlərlə də əsaslandırılır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası", "Ali təhsil pilləsinin dövlət standartı və proqramı", Ömürboyu Təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi və "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları" məzunların nəticəyönlü, səriştəəsaslı və əmək bazarına uyğun hazırlanmasını prioritet istiqamət kimi müəyyənləşdirir. Beynəlxalq səviyyədə isə Beynəlxalq Əmək Təşkilatının "XXI əsr üçün həyat və əmək fəaliyyətinin əsas səriştələri üzrə Qlobal Çərçivə" sənədi, İnsan Resurslarının İnkişafı haqqında 195 saylı Tövsiyəsi, UNESCO-nun Ali Təhsil üzrə Kvalifikasiyaların Tanınmasına dair Qlobal Konvensiyası, həmçinin TUNING və ESCO çərçivələri ali təhsil nəticələrinin peşə və əmək funksiyaları ilə əlaqələndirilməsini tələb edir. Bu sənədlərin müddəaları regionşünaslıq ixtisası üzrə tələbələrdə ümumi və ixtisasa xas səriştələrin sistemli formalaşdırılmasının elmi və praktik aktuallığını gücləndirir.

Problemin işlənmə dərəcəsi. Azərbaycanda mövcud ədəbiyyatın araşdırması göstərdi ki, bəzi tədqiqatçılar təhsildə səriştəlilik məsələlərinin müxtəlif tərəflərini diqqət mərkəzində saxlamışlar. Onlardan A.O. Mehrabov, M.Ə. Həmzəyev, M.Ə. Həmzəyev, M.İ. İlyasov, S.S. Əliyeva, P.B. Əliyev, İ.H. Cəbrayılov, S.F. Əmiraslanova, G. Bəndəliyeva kimi tədqiqatçıları qeyd edə bilərik**.**

M.İ. İlyasov "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri" adlı monoqrafiyası deyilənlərə nümunədir. O, təhsilalanlarda zəruri səriştələrin formalaşması prosesində müəllimin

yüksək peşə hazırlığının vacibliyini vurğulamışdır. Əsas diqqəti müəllimin yeni texnologiyaları mənimsəyərək tətbiq etməsi, öz üzərində daim çalışması kimi məsələlərə yönəldən tədqiqatçı müasir dünyada əmək bazarının tələblərinə toxunmur, problemi müəllim kadrlarının hazırlığında səriştəli yanaşma çərçivəsində araşdırır.

Əmək bazarına hazırlanan tələbələr müxtəlif sosial qruplarla münasibətlərini düzgün qurmağı bacarmalı, ünsiyyət vərdişlərini daim inkişaf etdirməlidirlər. Bu baxımdan ali məktəblərdə gələcək məzunların ünsiyyətcil şəxsiyyət kimi hazırlanmaları onların iş həyatında zəruri şərtlərdən hesab olunur. Tədqiqatçıların bəziləri tədris prosesində tələbə-müəllim münasibətləri istiqamətində araşdırmalar aparmışlar.

S.S. Əliyeva müasir dünyanın əmək bazarında tənqidi düşüncə, məntiqi əsaslandırma kimi səriştələrin getdikcə daha çox dəyər əldə edəcəyini vurğulasa da, tələbələrdə səriştələrin hansı metodlarla formalaşdırılması məsələlərindən bəhs etmir. Müəllif, "dövrün tələblərinə uyğun səriştələrin formalaşmasında müəllimlər təhsilalanlara necə dəstək verə bilər?" sualına cavab axtararkən tələbələrin şəxsi keyfiyyətlərinin nəzərə alınaraq müvafiq səmərəli üsulların tətbiqi kimi məhdud izahlar verir. G. Bəndəliyeva XXI əsrin təhsilalanlarını rəqəmsal və texnika dövrünün yetirmələri kimi nəzərdən keçirərək onlarda mühüm səriştələrin beynəlxalq təşkilatların bacarıqlara dair proqramları əsasında inkişaf etdirilməsininin üstünlüyünü vurğulayır. Son nəticə olaraq müəllif XXI əsrin təhsilalanlarında səriştələrin aşılanaraq inkişaf etdirilməsində müəllim hazırlığının zəruriliyini qeyd edir.

Təhsilalanlarda ümumi səriştələrlə yanaşı müxtəlif xüsusi səriştələrin də inkişafını vacib sayan İ.H. Cəbrayılov diqqəti tədqiqatçılıq qabiliyyətinə yönəldir. Müəllif göstərir ki, bu səriştənin inkişaf etdirilməsində tələbənin şəxsi xüsusiyyətləri də, müəyyən bünövrənin olması da şərtdir və elmi tədqiaqat mədəniyyətinin aşılanması tələbələrdə əsaslandırılmış fikirlər irəli sürməyə, düzgün nəticələr əldə etməyə təsir göstərəcək.

P.B. Əliyev haqqında bəhs edilən mövzuda məlum konsepsiyaları təhlil etmişdir. Müəllifin ən mühüm nəticəsi əmək bazarında məzunların yer tapmasında, iş həyatında irəliləməsində ali

məktəbin məsuliyyət daşımasını, tələb olunan sərişt ələrin təhsilalanlarda formalaşdırılmasının zəruriliyini vurğulamasıdır.

Ali təhsil müəssisələrində təhsilalanlarda sərişt ələrin formalaşdırılması problemi araşdırılarkən xarici ölkələrdə prosesin necə təşkil olunduğu, müxt əlif ölkə universitetl ərinin problemə yanaşma metodları, bənzər və fərqli tərəfl əri, eləcə də qəbul edil ən və qəbul edilməyən cəhətl əri istər-istəməz tədqiqata cəlb olunması, dərin təhlill ər aparılması, bu mövzuda mövcud elmi nəzəriyyələrin süzgəcdən keçirilməsi zəruridir. Təhsilin məzmunu və keyfiyyəti baxımından mühüm konseptual müddəalardan olan sərişt əlilik mövzusunu xarici alimlər də tədqiq etmişdir.

Dissertasiyada P. Griffin, J. Van Merrionboer, A. Stoof, T. Bastiaens və R. Martens, Artur, B. Lorens, D. Holl, V. Nikitenko, A. Lakeeva, N. Serbina, A. Borisova, Y. Qluşkova, İ. Siqankova, V. Nikitenko və başqa bu kimi alimlərin əsərləri təhlilə cəlb eedilmişdir.

Məzunların malik olduğu sərişt ələr və əmək bazarı arasında uyğunsuzluq məsələsi də tədqiqatçıların diqqətindən yayınmayıb. elmi əsərl ərində bu problemin tədqiqinə xeyli əmək sərf etmişdir. Bir qrup tədqiqatçı "tələbələr işəgötürənlərə nə təklif edə bilər", "əmək bazarında məzunların maraqları" suallarına cavabları eksperiment ilə elmi əsaslarla işıqlandırıb. Əmək fəaliyyətində peşəkarlıq səviyyəsi və şəxsi keyfiyyətl ərin inkişafı arasında bilavasitə əlaqə də bəzi tədqiqatçıların əsərl ərində vurğulanır.

Universitet hazırlığının məqsəd və vəzifələrini, mahiyyətini üzə çıxaran sənədlər -"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, Peşə təhsilinin dövlət standartları, həmçinin mövzu ilə əlaqəli bir çox beynəlxalq elmi layihələr də tədqiqata cəlb olunmuşdur.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti ali təhsil müəssisələrində regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin əmək bazarına hazırlanması prosesidir.

Tədqiqatın predmeti regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrdə əmək bazarının tələblərinə uyğun ümumi və xüsusi peşə sərişt ələrinin formalaşdırılması sisteminin məqsədi, məzmunu, metodları, təşkilati-pedaqoji şərtləri, qiymətləndirmə meyarları və monitorinq mexanizmidir.

Tədqiqatın məqsəd və vəzifələri. Tədqiqatın məqsədi - Azərbaycan Respublikasının universitetlərində regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin əmək bazarına uyğunlaşmasını təmin edən ümumi və ixtisasa xas səriştələri müəyyənləşdirmək, həmin səriştələrin formalaşdırılması üçün diaqnostik, məqsəd, məzmun, təşkilati-metodik, monitorinq-qiymətləndirmə və nəticə-korreksiya komponentlərindən ibarət sistemli model işləyib hazırlamaq və onun tətbiqi imkanlarını empirik məlumatlar əsasında əsaslandırmaqdır.

Tədqiqatın vəzifələri.

1. Regionşünaslıq ixtisası üzrə tələbələrdə əmək bazarına uyğun səriştələrin formalaşdırılmasının nəzəri-metodoloji əsaslarını müəyyənləşdirmək;

2. TUNING və ESCO çərçivələri, milli kvalifikasiya sənədləri və işəgötürən tələbləri əsasında ümumi və ixtisasa xas səriştələrin strukturunu dəqiqləşdirmək;

3. Tələbə, müəllim və işəgötürənlərin mövqelərini sorğu, müsahibə, fokus-qrup və müşahidə vasitəsilə öyrənmək, nəticələri statistik üsullarla təhlil etmək;

4. Regionşünaslıq tələbələri üçün peşə-texniki, rəqəmsal və çevik bacarıqların formalaşdırılmasına xidmət edən təlim metodlarını və təşkilati-pedaqoji şərtləri müəyyənləşdirmək;

5. Səriştələrin diaqnostikası, formalaşdırılması, monitorinqi və qiymətləndirilməsini birləşdirən sistemli model hazırlamaq;

6. Təklif olunan modelin ali təhsil müəssisəsində tətbiqi üçün kafedra, keyfiyyət təminatı strukturu, karyera mərkəzi, təcrübə şöbəsi və işəgötürənlərin birgə fəaliyyət mexanizmini əsaslandırmaq.

Tədqiqatın metodoloji bazası. Tədqiqat sistemli, fəaliyyət, səriştəyönlü, fənlərarası, praktikayönlü və şəxsiyyətyönlü yanaşmaların vəhdətinə əsaslanır. TUNING çərçivəsində ümumi və sahəvi səriştələrin təlim nəticələri ilə əlaqələndirilməsi, ESCO çərçivəsində isə bacarıq və səriştələrin peşə və əmək funksiyaları ilə uyğunlaşdırılması metodoloji istiqamət kimi qəbul edilmişdir. Bu yanaşmalar milli kvalifikasiya çərçivəsinin nəticəyönlülük prinsipi ilə uzlaşdırılmışdır.

Tədqiqat metodları. Qarşıya qoyulan vəzifələrin həllində aşağıdakı tədqiqat metodlarından istifadə edilmişdir:

1. Azərbaycan Respublikasında və xarici ölkələrdə ali təhsildə səriştəyönlü yanaşmanın nəzəri və praktik tətbiqini əks etdirən elmi ədəbiyyatın müqayisəli təhlili, sintezi və ümumiləşdirilməsi;

2. Fəlsəfi, pedaqoji, psixoloji, sosioloji və elmi-metodik mənbələrin nəzəri təhlili;

3. Dissertasiyaların və tədris proqramlarının öyrənilməsi, müşahidə, anket sorğusu, fokus-qrup müzakirəsi, yarımstrukturlaşdırılmış müsahibə və sənədlərin təhlili;

4. Pedaqoji eksperiment, tədris və peşə situasiyalarının modelləşdirilməsi;

5. Toplanmış məlumatların təsviri və inferensial statistik təhlili: tezlik və faiz göstəriciləri, orta qiymət, standart kənarlaşma, Cronbach alfa etibarlılıq əmsalı, KMO və Bartlett meyarları, faktor təhlili və birfaktorlu dispersiya təhlili (ANOVA).

Tədqiqatın məhdudiyyətləri. Empirik mərhələdə 178 tələbə, 33 işəgötürən və 15 müəllim iştirak etmişdir. Seçmə məqsədli və əlçatan seçmə xarakteri daşıdığından nəticələr bütün ölkə universitetlərinə statistik baxımdan avtomatik şamil edilmir; nəticələr tədqiqat bazası və respondent qrupları çərçivəsində şərh olunur. Nəticələrin etibarlılığını gücləndirmək üçün üç respondent qrupunun məlumatları, sənəd təhlili və müşahidə nəticələri qarşılaşdırılmışdır. Gələcək tədqiqatlarda çoxmərkəzli və təbəqələşdirilmiş seçmənin genişləndirilməsi nəzərdə tutulur.

Müdafiəyə çıxarılan əsas müddəalar:

1. Regionşünaslıq tələbələrinin əmək bazarına hazırlığında ümumi səriştələrlə yanaşı region dili, geosiyasi və regional təhlil, mədəniyyətlərarası kommunikasiya, diplomatik sənədləşmə və rəqəmsal informasiya emalı kimi xüsusi səriştələrin məqsədyönlü formalaşdırılması zəruridir.

2. Keys, problem və layihə əsaslı öyrənmə, tədqiqat tapşırıqları, istehsalat təcrübəsi və auditoriyadankənar fəaliyyət nəzəri biliklərin peşə situasiyalarında tətbiqini gücləndirir.

3. Məzun müxtəlif peşə situasiyalarında problemi müəyyənləşdirmək, səbəb-nəticə əlaqələrini təhlil etmək, alternativ

həllər hazırlamaq, əsaslandırılmış qərar qəbul etmək və nəticəyə görə məsuliyyət daşımaq səriştəsinə yiyələnməlidir.

4. Səriştələrin formalaşdırılması sistemi məqsəd-diaqnostik, məzmun, təşkilati-metodik, monitorinq-qiymətləndirmə və nəticə-korreksiya komponentlərinin qarşılıqlı əlaqəsi əsasında qurulmalıdır.

5. Səriştələrin qiymətləndirilməsi yalnız bilik yoxlaması ilə məhdudlaşmamalı, praktik tapşırıq, analitik hesabat, layihə, portfolio, müşahidə və işəgötürən rəyi əsasında aparılmalıdır.

6. Universitet-əmək bazarı əlaqəsi kafedra, keyfiyyət təminatı strukturu, karyera mərkəzi, təcrübə şöbəsi və işəgötürənlərin birgə monitorinqi ilə davamlı xarakter almalıdır.

7. Regionşünaslıq proqramlarında rəqəmsal savadlılıq, açıq mənbələrdən informasiya toplama və yoxlama, məlumatların vizuallaşdırılması, süni intellekt vasitələrindən etik istifadə və kibertəhlükəsizlik elementləri ixtisas məzmunu ilə inteqrasiya edilməlidir.

Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

1. Regionşünaslıq ixtisası üzrə tələbələr üçün ümumi səriştələrdən fərqləndirilən xüsusi peşə səriştələri profili müəyyənləşdirilmişdir: region dilindən peşəkar istifadə, geosiyasi və müqayisəli regional təhlil, mədəniyyətlərarası kommunikasiya, diplomatik və analitik sənədləşmə, regional risklərin qiymətləndirilməsi və rəqəmsal informasiya savadlılığı.

2. TUNING, ESCO və milli kvalifikasiya tələbləri ilə əlaqələndirilmiş məqsəd-diaqnostik, məzmun, təşkilati-metodik, monitorinq-qiymətləndirmə və nəticə-korreksiya komponentlərindən ibarət səriştəyönlü model işlənib hazırlanmışdır.

3. Modelin tətbiqi üçün səriştələrin səviyyələrini, indikatorlarını, qiymətləndirmə vasitələrini, məsul universitet strukturlarını və işəgötürənlə geribildirim dövrünü birləşdirən monitorinq mexanizmi əsaslandırılmışdır.

4. Tələbə, müəllim və işəgötürən mövqelərinin müqayisəli empirik təhlili əsasında regionşünaslıq proqramlarının praktik, rəqəmsal və analitik komponentlərinin təkmilləşdirilməsinə dair konkret tövsiyələr hazırlanmışdır.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti regionşünaslıq ixtisası üzrə tələbələrdə əmək bazarına uyğun səriştələrin formalaşdırılmasına dair pedaqoji, psixoloji və iqtisadi yanaşmaların sistemləşdirilməsi, "bilik-bacarıq-vərdiş-səriştə" anlayışlarının terminoloji sərhədlərinin dəqiqləşdirilməsi və xüsusi peşə səriştələrinin konseptual modeldə birləşdirilməsi ilə müəyyən olunur.

Tədqiqat nəticələri ali təhsildə səriştəyönümlü yanaşmanın elmi əsaslarını genişləndirir, regionşünaslıq proqramlarının təlim nəticələrinin TUNING, ESCO və milli kvalifikasiya tələbləri ilə əlaqələndirilməsi üçün konseptual çərçivə yaradır və gələcək tədqiqatlar üçün nəzəri baza təqdim edir.

Tədqiqatın praktik əhəmiyyəti - təklif olunan modelin regionşünaslıq proqramlarının yenilənməsində, sillabus və praktik tapşırıqların hazırlanmasında, istehsalat təcrübəsinin təşkilində, səriştələrin qiymətləndirilməsində və universitet-işəgötürən əməkdaşlığının monitorinqində istifadə oluna bilməsi ilə bağlıdır.

Aprobasiyası və tətbiqi. Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri idduaçının nəşr etdirdiyi 9 məqalədə (o cümlədən 3 məqalə xaricdə) və 7 konfrans materialında (o cümlədən 3 konfrans materialı xaricdə) öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin iqtisadiyyatı və idarə olunması şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın quruluşu. Dissertasiya işi girişdən, 10 paraqrafı özündə birləşdirən 3 fəsildən, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı nəzərə çatdırılır, işlənmə dərəcəsi araşdırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri açıqlanır, tədqiqat metodları göstərilir, müdafiəyə çıxarılan əsas müddəalar və tədqiqatın elmi yeniliyi əsaslandırılır, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və tətbiqi,

işin yerinə yetirildiyi təşkilatın adı, struktur bölmələrinin ayrılıqda, həmçinin dissertasiyanın ümumi həcmi haqqında məlumat verilir.

Dissertasiyanın I fəsli "**Bakalavr tələbələrində əmək bazarının tələblərinə uyğun səriştələrin formalaşdırılması işinin nəzəri əsasları**" adlanır. Bu fəslin "***Səriştələrin mahiyyəti və əhəmiyyəti***" adlı birinci paraqrafında çoxpilləli ali təhsil sisteminə keçid mərhələsində daha keyfiyyətli və rəqəmsal dünya tələblərinin dövlət təhsil standartlarına təsirindən, bununla bağlı ciddi dəyişikliklərdən bəhs olunur, səriştəlilik nəzəriyyəsinin yeni konsepsiyada mühüm rolu nəzərdən keçirilir. Qeyd olunur ki, səriştəlilik nəzəriyyəsinin təhsildə tətbiqi təhsialanlarda çevik qavramaya, mobilliyə, lazımi peşə vərdişlərinin formalaşmasına və bir çox bacarıqların üzə çıxmasına yardım edir. Hazırda pedaqoji elmlərin aktual problemləri sırasında mühüm yer tutan peşəkar səriştələr problemi ali məktəb məzunlarının əmək bazarında ziddiyyətlərlə qarşılaşması, sosial-iqtisadi dəyişikliklər səbəbindən əmək fəaliyyətinə başlamaqda bir sıra çətinliklərlə üzləşməsi səbəbindən aktuallığını qoruyur. Paraqrafda pedaqoji ədəbiyyatda son illər daha çox səslənməyə başlayan "səriştəli peşəkar" anlayışı elmi baxımdan tədqiq olunur, zəruri nəzəri müddəa olaraq tədrisin keyfiyyətinin yüksəldilməsində, təhsil-təlim prosesində səriştələrin aşılanması vacib məqam olaraq vurğulanır. Ali məktəb məzunu sosial dünyaya tez adaptasiya ola bilirsə, əmək fəaliyyətinə uğurla başlayırsa demək ki, səriştəlilik nəzəriyyəsi təhsil prosesində doğru tətbiq olunmuşdur.

Səriştəlilik yanaşması çərçivəsində tədris prosesində əldə edilən bacarıqlar hər bir fərdi özünü təkmilləşdirməyə, özünü tərbiyə və təşkil etməyə, biliyini artırmağa sövq edir, təhsilalanı işlərini planlaşdıraraq reallaşdırmağa, şəxsiyyətini inkişaf etdiməyə istiqamətləndirir. Başqa sözlə səriştələrin formalaşdırılması prosesi, əsas səriştəni–insanın öz "mən"ini daha da yaxşılaşdırması səriştəsini əldə etməyə ruhlandırır. Məhz bu, istənilən qabiliyyətin inkişafı üçün baza rolunu oynayır, təhsialanın həm tədris, həm də peşə həyatında müvəffəqiyyətlərinə zəmanət verir.

I fəslin "***Problemin pedaqoji, psixoloji və iqtisadi məsələləri***" adlı ikinci paraqrafında göstərilir ki, ali məktəb müəlliminin

tələbələrdə ümumi və peşə səriştələrinin förmalaşdırılması işi üzrə hazırlığı pedaqoji problemlərin təcrübədə həllinin vacib məsələlərindəndir. Tələbələrdə bu səriştələrin formalaşdırılması üzrə metodiki işin, elmi və tədris–metodoloji təminatın təşkili müasir müəllimin bilik və bacarıqlarının həcminin müəyyən edilməsi, onun psixoloji-pedaqoji səriştəliliyi modelinin yaradılmasını zəruri edir. Elmi ədəbiyyatın və pedaqoji təcrübənin təhlili göstərir ki, tələbələrdə sözügedən səriştələrin inkişaf etdirilməsi pedaqoqun yaradıcı yanaşması nəticəsində mümkündür. Bu hissədə ali təhsil sistemində təhsil və tərbiyənin bir çox pedaqoji yanama üsulları təhlil edilir.

Gələcək mütəxəssisin peşəkarlıq baxımından və şəxsiyyət olaraq mütəmadi təkmilləşməsi vacib məsələlərdəndir. Biliklərə malik olmaq kifayət etmir, onları idarə etməyi bacarmaq, informasiya məkanı yaratmaq lazımdır. Peşəkarlıqdan başqa gənc mütəxəssis məsuliyyətli və müxtəlif mürəkkəb situasiyalara psixoloji baxımdan hazır olmalıdır. Bakalavrlarda səriştələrin fomalaşması prosesində bu keyfiyyətlər xüsusilə diqqətdə saxlanılır.

Bəhs olunan fəslin üçüncü paraqrafında müəllif pedaqogika elminin ən aktual məsələlərindən birinə həsr edərək **"*XXI əsrin səriştələrinin təhsildə yeri*"**ni müəyyən etməyə çalışır. Burda göstərilir ki, XXI əsrin tələblərinə cavab verən universal səriştələrə malik olmaq gələcəyin peşəkarları-post-sənaye dövrünün adamları üçün zəruri şərtdir. Sözügedən bacarıqların təhsilalanlarda tərbiyə edilməsi mövzusu ilk dəfə 2010-cu ildə baş tutan Beynəlxalq elmi layihədə səsləndirilmişdir. ATC21S (Assessment and Teaching of 21st Century Skills) adlanan layihə rəhbərləri məzunların universal bacarıqlara sahib olması təklifini qlobal problem kimi irəli sürmüşlər. XXI əsrə aid bacarıqların tədris edilməsi və onlara qiymət veilməsi problemi dünyanın bir çox nüfuzlu ali təhsil müəssisələrinin marağını üzərinə çəkə bilmişdir.

Fəslin bu hissəsində keçən əsrin təhsili ilə XXI əsrin təhsili arasında fərq tədqiq edilmiş nəticələr cədvəl-1-də yerləşdirilmişdir.

Cədvəl 1.3.1

XXI əsrin təhsili arasında fərq

XX əsr təhsili	XXI əsr təhsili
Auditoriya iştirakçıları demək olar ki, eyni yaş dövründə və bilik səviyyəsidədir	Auditoriya iştirakçıları fərqli yaşlardadır, bilik səviyyələri müxtəlifdir
Sinif üzrə tədris təklif edilir	Təhsil planı fərdi tərtib olunub
Müəllin vəzifəsi hazır bilikləri təhsilalanlara ötürməkdən ibrətdir	Müəllim istiqmətverici rolunda çıxış edir, məlumat-tədris mühitinə təşkilatçılıq edir
Məlumatın əldə edildiyi mənbələr məhduddur	Məlumatın əldə edildiyi mənbələr çoxsaylı və qeyri- məhduddur
Müəllim tərəfindən hazırlanan təhsil mühiti mövcuddur	Pedaqoq və təhsilalanların müştərək yaratdığı təhsil mühiti mövcuddur.
Təhsilalanlar hazır məlumat və biliklər qəbul edirlər	Təhsilalan müstəqil yanaşma mövqeyindən çıxış edir
Biliklər dərslik və dərs proqramlarında əks olunub	Biliklər durmadan yenilənir, fərqli mənbələrdən əldə edilir, müşahidələrə əsaslanır
Artıq məlum olan biliklər, bacarıq və səriştələr ötürülür	Təhsilalan özünün fərdi bilik dünyasını yaradır, bacarıqlarını və mədəni səviyyəsini inkişaf etdirir

Göründüyü kimi, XX əsr təhsili ilə XXI sər təhsili arasında müəllim-tələbə rollarının ciddi şəkildə dəyişməsi müşahidə olunur. Təhsil materiallarında tənqidi yanaşma, yaradıcılıq qabiliyyətinin formalaşdırılması, problemlərin həllində kritik təhlil tətbiq edilməsi ön sırada yer alır, şəxsi münasibətlərin məntiqlə təşkil olunması ehtiyacı özünü göstərir.

Tədqiqat işinin **"Əmək bazarının və işə qəbul perspektivinin tələbələrdə səriştələrin formalaşdırılmasına təsiri"** adlı II fəsli dörd paraqrafa bölünüb. Birinci paraqrafda ***"Dünya iqtisadi vəziyyətinin səriştələrin formalaşdırlmasına təsiri"*** izlənilir. Göstərilir ki, əmtəə, xidmətlər və kapitallar bazarı ilə yanaşı dünya əmək bazarı getdikcə mühüm əhəmiyyət kəsb etməyə başlayır,

qlabollaşma və istehsalın beynəlmiləlləşməsi proseslərinin sürətlənməsi şəraitində əmək bazarı yalnız milli bazarların toplusu olmyaraq dünya bazarının yeni, daha keyfiyyətli inkişafını əks etdirir. Ali təhsil müəssisələrini bitirən gənc mütəxəssislər əmək bazarına çıxdıqları zaman bir sıra çətinliklərlə qarşılaşmalı olurlar. Bu baxımdan əmək bazarının vəziyyətini təhlil edən tədqiqatçılar gənc mütəxəssislərin işə qəbul edilməsi və gənclər arasında işsizliyin yüksək səviyyəsini nəzərə alaraq, diqqəti onların qarşılaşdıqları problemlərə yönəldirlər. Tədqiqatçılara görə ali təhsil müəssisələrinin məzunlarının qarşılaşdıqları çətinliklər sırasında əsas yeri məhz onların əldə etdikləri səriştələrlə əmək bazarının tələb etdiyi səriştələr arasında uyğunsuzluq alır.

Əmək bazarına ilk dəfə gedən, iş təcrübəsi və yetəri qədər peşəkar keyfiyyətlərə malik olmayan gənclər əhalinin nisbətən həssas sosial qruplarına aid edilir. Ona görə də qabaqcıl texnologiyalara hakim, bazar iqtisadiyyatı şərtlərinə tez adaptasiya olacaq yüksəkixtisaslı kadrların hazırlanmasını mühüm strateji məqsədlər siyahısına daxil edə bilərik. Bu strategiyanın izlənməsi dövlətlərin rəqabətədavamlılıq qabiliyyətlərinin yüksəlməsinə, iqtisadiyyatın sürətlə inkişafına təminat verəcək.

Fəslin **"*Azərbaycan Respublikasında əmək bazarının səriştələrin formalaşdırılmasına təsiri*"** adlı ikinci paraqrafda istehsal müəssisələrinin tələblərinin ali təhsil prosesində nə dərəcədə nəzərə alınması, müəssisələrlə ali məktəblər arasında iş birliyi məsələləri işıqlandırılır. Burda göstərilir ki, bir çox ölkələrdə iqtisadi tənəzzül prosesləri, infilyasiyanın dərinləşməsi dünya bazarının inkişafını ləngidir, süni intellektin getdikcə daha çox tətbiq edilməsi, sürətli rəqəmsallaşma isə ənənəvi peşələrə tələbatı aradan qaldırır. Qloballaşan əmək bazarında baş verənlər Azərbaycan Respublikasına da təsirsiz ötüşmür, ölkə rəhbərliyi tərəfindən əmək ehtiyatları sahəsində bir sıra mütərəqqi layihələr hazırlanır. Təbii olaraq, insan kapitalının tərəqqisi üçün imkanlar yaradılması, iqtisadiyyatın müxtəlif sahələrində rəqəmsal elementlərin tətbiqi istənilən ölkənin sosial-iqtisadi inkişafına xidmət edir. Respublikamızda əhalinin məşğulluğu məsələsinin müsbət həlli istiqamətində görülən tədbirlər, büdcənin müəyyən hissəsinin bu məqsəd üçün nəzərdə tutulması,

irimiqyaslı layihələrin hazırlanaraq həyata keçirilməsi dünya əmək bazarı ilə çuğlaşmaq zərurətindən irəli gəlir. Qeyd edək ki, istehsalata cəlb olunacaq gənclərin məşğulluq məsələsi dövlət sahələri ilə yanaşı özəl sahələri də maraqlandırır və bu istiqamətdə mühüm idarəçilik islahatları tətbiq edilir.

II fəslin üçüncü paraqrafında **"*Səriştələrin tələbələrin iş həyatındakı uğuruna təsiri. Liderlik, ünsiyyət, kritik düşüncə və yaradıcı təfəkkürün formalaşdırılması*"** məsələləri araşdırılır. Qeyd olunur ki, seçdiyi ixtisas sahəsində özünü doğrulda biləcək səriştəli mütəxəssis hazırlığı bu günki ali təhsil sisteminin mühüm vəzifələrindən biridir və strateji məqsəd daşıyır. Nüfuzunu qoruyaraq gündəmdə qalmaq uğrunda mübarizə aparan müasir şirkətlər iş axtaran potensial namizədlər qarşısında müxtəlif tələblər irəli sürür, diqqətlərini dərin ixtisas bilikləri ilə yanaşı yüksək peşə vərdişləri üzərində cəmləşdirirlər. Potensial namizədlər çevik düşüncə qabiliyyətli, öyrənməyə daim hazır, sürətlə dəyişən şərtlərə adaptyasiya olmağı bacarmalıdırlar. Potensial işəgötürən kadr seçimi zamanı peşə öhdəliklərinə birbaşa aid olmayan, lakin onu əla personal kimi qiymətləndirəcək "soft skills" sahiblərinə üstünlük verirlər. İşə qəbulda uğur qazanmaq üçün tələbələr və məzunlar əmək bazarında olan yeni tələbləri izləməli, ixtisas vərdişləri ilə müqayisədə yumşaq vərdişlərin əldə edilməsi faktının çox zaman aldığını nəzərdə tutmalı, təhsil dövründə səriştələrin daha geniş spekterinə yiyələnməyə çalışmalıdırlar. Gənc mütəxəssislərdə səriştələrin formalaşmasının zəruriliyinin qeyd etməklə yanaşı istənilən nəticələrin əldə olunması yolunda yaranan problemlərin həlli məslələrinə də diqqət yetirmək lazımdır. Tələbənin fəaliyyətinin təşkilində mərhələli inkişaf sisteminin, həmçinin bu səriştələrin səviyyəsinin qiymətləndirilməsi alətinin olmamasını həmin problemlərə aid edə bilərik.

II fəslin dördüncü paraqrafında **"*Səriştələrin sistemli şəkildə formalaşdırılmasında ali təhsil müəssisələrinin rolu*"** ilə əlaqəli məsələlər təhlil edilir, ali təhsil müəssisələrinin bu sahədəki fəaliyyəti qiymətləndirilir. Ali təhsil insanın və cəmiyyətin inkişafının təməli rolunu oynayaraq, mənəvi, həmçinin istehsal potensialının təkamülünə zəmanət verir. Ali məktəblərdə təhsil dövrü

gənclərin sosiallaşmasına, həyat strategiyası və planlarının qurulmasına, əldə edillən biliklərin reallaşdırılmasına xeyli dərəcədə təsir göstərir.

Ali təhsil müəssisələrində müxtəlif forma və metodların tətbiqi sayəsində aşılanan ixtisas və universal səriştələr innovasiya iqtisadiyyatına layiq olacaq innovasiya kadrlarının hazırlanması deməkdir. Universitet mühitinin bütün vasitələrini səfərbər edərək səriştələrin dəyişkən, kompleks və fərqli sisteminin layihələndirilməsi yeni texnoloji qərarlar tətbiq edə biləcək, sistemli və tənqidi düşüncəyə malik olan, layihələri idarə edə biləcək, komandada çalışa biləcək kadr hazırlığı imkanlarını artırmış oluruq. Tələbələrin təhsil və tərbiyəsində professor-müəllim heyəti, ali məktəb alimləri, tədris qruplarının kuratorları üzərinə böyük məsuliyyət düşür. Qənaətimizə görə, aşağıda göstərilən bir sıra şərtlərin həyata keçirilməsi təlim prosesinin daha təkmil formasına gətirib çıxara bilər:

– yüksəskixtisaslı pedaqoji işçilər tərəfindən kadr təminatının həyata keçirilməsi (məsələn, texniki, iqtisadi və tibb sahəsi üzrə ali təhsil müəssisələrində bütün müəllimlər pedaqoji təhsilə malik deyil. Bu səbəbdən də onlar üçün psixopedaqoji kursların təşkili məqsədəuyğundur);

– pedaqoji forumlar, konfranslar və bu kimi tədbirlərin təşkil edilməsi yolu ilə müəllimlərin pedaqoji mədəniyyətinin mütəmadi təkmilləşdirilməsi;

– elmi–tədqiqat fəaliyyətində və ictimai tədbirlərdə pedaqoji əməkdaşlıq prinsiplərinin və tələbələrin aktivliyinin reallaşdırılması;

– tələbə özünüidarə sistemini təkmilləşdirilməsi;

– tələbələrin şəxsiyyətinin inkişaf etdirilməsi məqsədilə rahat mədəni-təhsil mühitinin təmin edilməsi;

– tələbələrin asudə vaxtlarının təşkili, tələbə kollektivinin hər bir üzvünün hərtərəfli inkişafı üçün yardım göstərilməsi;

Göstərilənlərin həyata keçirilməsi tələbələrin sosial mədəni səriştələrinin inkişafına təsir göstərəcək, gələcək mütəxəssislərin həyatda layiqli yer tutaraq cəmiyyətə və dövlətə faydalı fərd olmalarına kömək edəcək.

Tədqiqat işinin **"Regionşünaslıq ixtisası üzrə tələbələrdə səriştələrin formalaşdırılmasının imkan və yolları"** adlı III fəsil üç paraqrafdan ibarətdir. Bu fəslin birinci paraqrafında ("***Təlim prosesində və auditoriyadankənar vaxtlarda tələbələrdə səriştələrin formalaşdırılmasının imkanları")*** tədris prosesində tərbiyəvi məsələlərin həllində sosial adaptasiya səviyyəsi, şəxsi–mənəvi keyfiyyətlər, təhsilalanın yaradıcılıq potensialının dərəcəsi, vətəndaş mövqeyi, məsuliyyət hissi kimi keyfiyyətlər diqqətdən kənarda qala bilməz. Eyni zamanda, tələbənin özünün sosial mahiyyətini anlaması, təhsilinə məqsədyönlü yanaşması, əməksevər şəxsiyyət kimi formalaşdırılması vacibdir. Əmək bazarına gedən gənc mütəxəssisin iş həyatında uğur əldə edə bilməsi üçün bir sıra zəruri vərdişlər mümkün qədər yüksək səviyyədə təmsil olunmalıdır və onların arasında daha əhəmiyyətli olanları ayıra bilərik:

– qavrama, ümumiləşdirmə, informasiyanın analizi, məqsədlərin qoyulması və onlara nail olunması yollarının müəyyən etməyi bacarmaq;

– səlis nitqə malik olmaq, əsaslandırılmış, məntiqi fikirlər söyləyə bilmək;

– əməkdaşlarla mehriban ünsiyyətə hazır olmaq;

– özünə tənqidi yanaşmağı, müsbət və mənfi cəhətlərini doğru qiymətləndirməyi bacarmaq, təkmilləşməyə meyilli olmaq.

Ümum-elmi səriştələr ixtisasın sosial əhəmiyyətinin dərk edilməsi prosesinin formalaşmasına təsir göstərir. Buna görə də aşağıdakılara diqqət yetirilməlidir:

– Peşəkar etik–özünüdərk səviyyəsinin yüksəldilməsi;

– Sosial və peşəkar məsələlərin həllində humanitar, iqtisadi, sosial elmlərə aid metodlardan, onların əsas müddəalarından istifadə vərdişləri;

– Müasir tədris və informasiya texnologiyalarından istifadə etməklə mütəmadi olaraq yeni biliklər əldə etmək. İnternet də daxil böyük həcmdə əldə edilən informasiya şəraitində düzgün istiqamətlənmək, həqiqi məlumatları yalan və gərəksiz məlumatlardan aylıra bilmək.

Dissertasiya işinin III fəslinin birinci paraqrafında, həmçinin Azərbaycan universitetlərində tədris prosesində tələbələrdə

səriştələrin inkişafı üçün yaradılan imkanlar araşdırılır, tədris planlarındakı fənlərə təhsilalanların münasibətini öyrənmək məqsədilə aparılan eksperimentlərdən bəhs olunur. Anket sorğularına BDU-nun şərq ölkələri üzrə regionşünaslıq ixtisasından məzun olacaq tələbələri cəlb olunmuş və sorğuların cavabları cədvəl daxilində yerləşdirilmişdir.

Fəslin ikinci paraqrafında **"*Bakalavr səviyyəsində təhsilalanlarda səriştələrin formalaşdırılmasının yolları*"**nın elmi təhlili aparılır.

Peşəkar səriştələr strukturuna daxil olan bir sıra səriştələr əslində çoxpiləli və mürəkkəbdir. Bunların mənimsənilməsi yalnız linqvistik deyil, bir sıra başqa humanitar fənlərin öyrənilməsini zəruri edir. Həmin səbəbdən də ali məktəbdə hazırlıq dövründə lazımi səriştələrin formalaşması yolları nəzərdən keçirilməlidir. Düşünürük ki, bu yollardan biri tədris prosesində innovasiya üsulunun, onun növlərinin və texnologiyalarının tətbiq edilməsidir. Bunlardan bəzilərini diqqətə çatdıraq:

Tədris prosesində problem əsaslı öyrənmənin tələbələrdə bir sıra səriştələrin formalaşmasına güclü təkan verməsi fikiri ilə razılaşaraq qeyd etməliyik ki, bu tip öyrənmə yaradılan problem situasiyalardan istifadə edərək təhsilalanların nəzəri və təcrübi problemləri, tapşırıqları həll etməsinə istiqamətlənir. Obyektiv problem situasiyanın "özününküləşdirilməsi" problem əsaslı tədrisin mərkəz məsələlərindən hesab oluna bilər. Əmək bazarı ilə "regionşnaslıq" ixtisası üzrə məzun olan tələbələr arasında münasibətlərin müəyyən edilməsi, bu sahədə peşəkar təhsilin mümkün ehtiyatlarının üzə çıxarılması məqsədilə müəllif tərəfindən sorğu təşkil edilmiş, "xarici regionşünaslıq" istiqamətində ali məktəb məzunları sorğuya cəlb edilmişdir. Azərbaycan və dünya əmək bazarında vəziyyətin təhlili məqsədilə sorğuya həm Azərbaycan Respublikasının ali məktəblərindən "regionşünaslıq" ixtisası üzrə məzunlar, həm də müxtəlif ölkələrdə eyni ixtisas üzrə məzunlar cəlb edilmişdir. Azərbaycan üzrə sorğuda ekspert kimi iştirak edən məzunlar 2 ildən çox iş təcrübəsinə malikdir, bunlardan 7-si bakalavr, 11-i isə magistr diplomu ilə işə başlamışlar. Sorğuda Azərbaycanın regionşünaslıq ixtisasının tədris olunduğu

universitetlərdən: Bakı Slavyan Universitetindən 3, Turizm və menecment Universitetindən 4, Azərbaycan Universitetindən 1, Bakı Dövlət Universitetindən 5, ADA universitetindən 2, Azərbaycan Dillər Universitetindən isə 3 məzun fikir bildirmişdir. Müxtəlif ölkələrdən (Rusiya-4, Qazaxıstan-3, Türkiyə-5, İsveç-1, Çin-1, Kanada-2) elektron sorğuya cəlb edilmiş 16 mütəxəssis 2-3 il iş təcrübəsinə malikdirlər. Respondetlər arasında Avropa Birliyinin nümayəndəliyi, Xarici işlər nazirliklərinin müvafiq şöbələrində, Beynəlxalq təşkilatlarda, dövlət qurumlarında çalışan, həmçinin pedaqoji fəaliyyətlə məşğul olanlar var. Bütün ekspertlər "peşəkar səriştələr siyahısından hansı səriştələr işə qəbul edilərkən daha gərəkli olmuşdur?" və "peşəkar təhsil çərçivəsində hansı səriştələr üzərində iş yetərsiz olmuşdur "sualları üzərində düşünmüşlər. Sorğunun nəticələrinə görə Azərbaycan, Rusiya və Qazaxıstan ali məktəblərinin məzunları konkret region üzrə, regionda hakim olan dildən istifadə etməklə rəsmi və işgüzar sənədləşmənin (elektron yazışmalar və s.) aparılması ilə bağlı baza biliklərə malik olmaq səriştəsinin işə qəbul zamanı gərəkli olduğunu söyləmişlər. Türkiyə, İsveç, Kanada və Çindən olan mütəxəssislər isə sosial metodlar barədə biliklərə malik olmaq, konkret region üzrə planlaşdırma aparılmasına, real bazar şəraitində obyektin tədqiqinə hazırlıq səriştəsinin əsas tələblər sırasında nəzərdən keçirildiyini bildirmişlər. Bütün respondetlərin sorğu cavablarında konkret region üzrə məskunlaşan xalqların siyasi mədəniyyəti və mentaliteti, tarixən yaranmış sosial-siyasi və hüquqi sistemlərinin spesifik xüsusiyyətləri barədə dərin biliklərin əsas şərt kimi irəli sürüldüyü göstərilmişdir.

Azərbaycan universitetləri sırasında daha çox Avropayönlü "Xəzər" univesitetinin "Regionşünaslıq (Avropa üzrə)" fakültəsinin III-IV kurs tələbələri arasında aparılan sorğu beynəlxalq profilli ali təhsildə bakalavrların peşəkar fərdiliyinin formalaşmasına təsir edən amillərin müəyyən edilməsi məqsədi daşıyır. Tələbələrə təklif edilən suallar arasında bunlar göstərilirdi:

1. Dil dərsləri peşəkar fərdiləşməyə nə dərəcədə təsir göstərir?

2. Xarici işlər nazirliyində iş təcrübəsi olanların təhsilverənlər sırasına qatılması ixtisas üzrə hazırlığa müsbət təsir göstərə bilərmi?

3. Xarici təşkilatlarda təcrübə keçilməsi daha səmərəli təsir göstərə bilərmi?

4. Beynəlxalq münasibətlər sahəsində iş təcrübəsinə malik mütəxəssislərin mühazirələri nə qədər əhəmiyyətlidir?

5. Təcrübi bilik və bacarıqların formalaşmasına həsr olunan mühazirə saatlarının (kursların) sayının artırılmasını istədinizmi?

6. Peşəkar fərdiləşməyə təsir göstərəcək daha hansı amillərə diqqət yetirilməsini istərdiniz?

7. Peşəkar fərdiləşmə prosesində vətənpərvərliyin, ölkənin milli maraqlarının müdafiə olunması hisslərinin aşılanmasının zəruriliyinə münasibətiniz necədir?

Tələbələr təklif olunan suallara cavablarda maraqlı yanaşma nümayiş etdirdilər. Fərqlər yalnız III və IV kursların cavablarında deyil, eyni kurs tələbələrinin düşüncə tərzində də aşkar idi.

Diqqət edək ki hər iki kurs tələbələri xarici təşkilatlarda təcrübə keçilməsini yüksək qiymətləndirmişlər (90% və 95%). Bu nəticə yerli müəssisələrdə keçirilən təcrübələrlə bağlı eksperimentlərin aparılması zəruriliyini yaratdı. Tələbələrin yerli təşkilatlarda təcrübədən imtina etmə səbəbləri tədqiqatın mühüm hissələrindən biri hesab oluna bilər. Biz, "Bakı Slavyan Universiteti" (5 təcrübəçi), "Qərb universiteti" (7 təcrübəçi) və "Azərbaycan Dillər universiteti"ndən (11 təcrübəçi) "Beynəlxalq münasibətlər və regionnşünaslıq" ixtisası üzrə AMEA-nın A.A. Bakıxanov adına Tarix İnstitutunda 2023-cü ilin mart-may ayları ərzində təcrübə keçmiş tələbələrlə bağlı eksperimentləri təşkil etmək qərarına gəldik.

III fəslin üçüncü paraqrafı ***"Eksperimentin təşkili, aparılması və ümumiləşdirilməsi"*** adlanr. Bu tədqiqatın əsas məqsədi regionşünaslıq ixtisası üzrə təhsil alan tələbələrdə əmək bazarının tələblərinə uyğun bacarıqların formalaşdırılması səviyyəsini qiymətləndirmək və bu bacarıqların təhsil prosesi vasitəsilə hansı dərəcədə inkişaf etdirildiyini təhlil etməkdir. Eksperiment çərçivəsində 178 tələbə, 33 işəgötürən və 15 müəllim arasında anket sorğusu aparılmış, nəticələr isə statistik təhlil edilərək ümumiləşdirilmişdir.

Araşdırmada əsas metod kimi anket sorğusu seçilmişdir. Anket 9 əsas bacarıq üzrə Likert şkalası (1-çox zəif, 5-çox yüksək) ilə hazır-

lanmış, əlavə olaraq tələbələrin ali təhsilin bu bacarıqları inkişaf etdirmə səviyyəsi və iş təcrübəsi olub-olmaması da qiymətləndirilmişdir.

Cədvəl 3.3.1.
Sorğuda iştirak edən tələbələrin cins üzrə paylanması

	Say	Faiz (%)
Qadın	110	61.8%
Kişi	68	38.2%

Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Aparılmış sorğunun nəticələrinə əsasən, iştirak edən tələbələrin cins üzrə bölgüsü aşağıdakı kimidir: 110 nəfər və ya 61.8% qadın, 68 nəfər və ya 38.2% kişi təşkil etmişdir.

Cədvəl 3.3.2.
Sorğuda iştirak edən tələbələrin kurs üzrə paylanması

	Say	Faiz (%)
I kurs	45	25.3%
II kurs	40	22.5%
III kurs	50	28.1%
IV kurs	43	24.1%

Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Sorğuda iştirak edən tələbələrin kurs üzrə bölgüsünə görə, I kursdan 45 nəfər (25.3%), II kursdan 40 nəfər (22.5%), III kursdan 50 nəfər (28.1%) və IV kursdan 43 nəfər (24.1%) iştirak etmişdir.


Cədvəl 3.3.7.
Sorğuda iştirak edən tələbələrin bacarıqlarla bağlı nəticələrinin təsviri analizi

	Mean	Std. Deviation	Minimum	Maximum
Problem həll etmə	2.94	1.44	1	5
Ünsiyyət qurma	3.12	1.41	1	5
Komanda işi	3.01	1.38	1	5
Rəqəmsal bacarıqlar	3.01	1.42	1	5
Zamanın idarə olunması	2.94	1.40	1	5
Sahibkarlıq	3.13	1.37	1	5
Xarici dil bilikləri	3.03	1.38	1	5
Tənqidi düşüncə	2.90	1.43	1	5
Yaradıcılıq	2.98	1.42	1	5

Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Tələbələrin müxtəlif bacarıqlara dair özünüqiymətləndirmə nəticələrinin təsviri təhlili bir sıra müşahidələri ortaya qoyur (Cədvəl 3.3.7). Belə ki, orta qiymətlər (Mean) 2.90 ilə 3.13 arasında dəyişir ki, bu da tələbələrin bacarıqları üzrə özlərinə verdikləri qiymətin ümumilikdə orta səviyyədə olduğunu göstərir. Standart sapmaların (Std. Deviation) 1.37 ilə 1.44 arasında olması isə cavabların müəyyən dərəcədə dəyişkən olduğunu, yəni tələbələr arasında bacarıqlara dair fərqli səviyyələrin mövcud olduğunu göstərir. **Ən yüksək ortalama** sahibkarlıq bacarığına (Mean = 3.13) və ünsiyyət qurma bacarığına (Mean = 3.12) aiddir. Bu, tələbələrin bu iki sahədə özlərini nisbətən daha güclü hesab etdiklərini göstərir. **Ən aşağı ortalama** isə tənqidi düşünmə (Mean = 2.90) və problem həll etmə (Mean = 2.94) sahələrinə aiddir. Bu nəticə tələbələrin məntiqi-analitik və strateji düşüncə sahələrində daha çox çətinlik çəkə bildiklərini göstərir. Komanda işi və rəqəmsal bacarıqların hər ikisi eyni ortalama (Mean = 3.01) ilə qiymətləndirilmişdir. Bu isə göstərir ki, tələbələr bu bacarıqlarda özlərini nə zəif, nə də yüksək səviyyədə

görürlər — orta səviyyədə qiymətləndirirlər. Bütün bacarıqlar üçün minimum dəyər 1, maksimum dəyər isə 5 olmuşdur. Bu isə o deməkdir ki, hər bir bacarıq üzrə tələbələr arasında həm özünü çox zəif, həm də çox güclü hesab edənlər mövcuddur.




Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Diaqram 3.3.1. Yeni məzunlarda ən çox çatışmayan bacarıqlar

Praktik bilik və tətbiq bacarığı (30.3%) ən çox çatışmayan sahə kimi qeyd olunmuşdur. Bu, məzunların nəzəri biliklərini real iş mühitinə tətbiq etməkdə müəyyən çətinliklər yaşadıqlarını göstərir. Ali təhsilin praktik yönümlülüyünün artırılması vacibdir. Problemlərin həlli və təşəbbüskarlıq (21.2%) bacarıqları da əhəmiyyətli dərəcədə zəif qiymətləndirilmişdir. Bu, məzunların müstəqil düşünmə və yeni ideyalar irəli sürmə qabiliyyətlərinin inkişaf etdirilməsinə ehtiyac olduğunu göstərir. Ünsiyyət və komanda işi bacarıqları (18.2%) əmək bazarında kollektiv iş və səmərəli kommunikasiya bacarıqlarının əhəmiyyətini önə çıxarır və bu sahədə təkmilləşmənin vacib olduğunu vurğulayır. Xarici dil və texnoloji biliklər (15.2%) qlobal rəqabət şəraitində məzunların bu sahələrdə zəif tərəflərinin olduğunu göstərir və bunun da tədris proqramlarında xüsusi diqqət tələb etdiyini bildirir. Analitik və tənqidi düşüncə (9.1%) isə digər bacarıqlarla müqayisədə nisbətən az


çatışmayan sahə kimi qiymətləndirilsə də, bu qabiliyyətlərin də inkişaf etdirilməsi təhsilin keyfiyyətinin artırılmasına xidmət edər.



Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Diaqram 3.3.2. Universitet təhsilinin gəncləri əmək bazarına hazırlıq səviyyəsi


Sorğuya qatılanların böyük əksəriyyəti (54.5%) universitet təhsilinin gəncləri əmək bazarına qismən hazırladığını qeyd etmişdir. Bu, təhsil sistemində müəyyən müsbət cəhətlərin mövcud olduğunu, lakin hazırlıq səviyyəsinin kifayət qədər tam olmadığını göstərir. Yalnız 15.2% respondent universitet təhsilinin əmək bazarına tam hazırlıq verdiyini düşünür. Bu göstərici nisbətən aşağı olmaqla, ali təhsilin bazar tələblərinə tam uyğun olmadığını vurğulayır. 24.2% respondent isə universitet təhsilinin əmək bazarına hazırlıq baxımından yetərsiz olduğunu hesab edir ki, bu da mövcud təhsil proqramlarının təkmilləşdirilməsinə ciddi ehtiyac olduğunu göstərir. 6.1% iştirakçı isə mövzu ilə bağlı qəti fikir bildirə bilməmişdir.



Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Diaqram 3.3.3. İşəgötürənlərin təhsil müəssisələrinə vermək istədikləri töhfələr

Praktik bacarıqların inkişafına üstünlük verilməsi (36.4%) respondentlər tərəfindən ən çox vurğulanan məqamdır. Bu, təhsil prosesində nəzəri biliklərlə yanaşı, real iş şəraitində tətbiq edilə bilən bacarıqların artırılmasına ehtiyac olduğunu göstərir. Təcrübə proqramları ilə əməkdaşlığın gücləndirilməsi (24.2%) ali təhsil müəssisələrinin işəgötürənlərlə daha sıx əlaqələr quraraq tələbələrin peşəkar təcrübə qazanmalarına şərait yaratmasının vacibliyini ortaya qoyur. Müasir əmək bazarının tələblərinə uyğun kurikulumun hazırlanması (18.2%) tələbələrin gələcəkdə uğurlu karyera qurması üçün proqramların yenilənməsinin əhəmiyyətini vurğulayır. Xarici dil və texnologiya dərslərinin artırılması (12.1%) rəqəmsal və qlobal dünyada rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından zəruridir. Digər tövsiyələr (9.1%) isə əlavə sahələri və fərqli yanaşmaları əhatə edir.



Qeyd: SPSS (Statistical Package for the Social Sciences) proqramı əsasında müəllif tərəfindən hesablanıb.

Diaqram 3.3.4. Bacarıq qiymətləndirmələrinin müqayisəsi

Problem həll etmə bacarığı üzrə tələbələr özlərini işəgötürənlər və müəllimlərdən daha yüksək qiymətləndirirlər. İşəgötürənlər və müəllimlər isə bu bacarığı daha zəif qiymətləndirir, bu da tələbələrin bu sahədə öz bacarıqları haqqında həddən artıq optimist olduqlarını göstərə bilər. Ünsiyyət qurma bacarığı da tələbələr tərəfindən daha yüksək, müəllimlər və işəgötürənlər tərəfindən isə nisbətən aşağı qiymətləndirilmişdir. Bu fərq, tələbələrin kommunikasiya bacarıqlarını yetərincə inkişaf etdirmədikləri barədə xarici rəyin mövcudluğunu ifadə edir. Komanda işi bacarığı üzrə işəgötürənlər və tələbələr oxşar, müəllimlər isə nisbətən daha aşağı qiymət vermişdir. Bu göstərici müəllimlərin tələbələrin kollektiv iş bacarıqlarında müəyyən zəifliklərı gördüyünü ifadə edə bilər. Rəqəmsal bacarıqlar üç qrup arasında ən yaxın qiymətləndirmə fərqlərinə malikdir, lakin müəllimlər yenə də bu sahəni tələbələrdən az bir qədər aşağı qiymətləndirir. Zamanın idarə olunması bacarığı müəllimlər tərəfindən işəgötürənlərdən bir qədər yüksək, tələbələr isə ən yüksək qiyməti vermişlər. Bu da tələbələrin vaxt idarəsi mövzusunda özlərini yetərincə bacarıqlı hesab etdiklərini göstərir. Sahibkarlıq

bacarığında müəllimlər ən yüksək qiyməti vermiş, tələbələr isə işəgötürənlərdən daha yüksək qiymətləndirmişlər. İşəgötürənlərin bu bacarığa verdiyi qiymətin digər iki qrupdan aşağı olması, sahibkarlıq düşüncəsinin əmək bazarında tələbə və müəllimlər tərəfindən daha çox vurğulanmasına baxmayaraq, real iş şəraitində tam dəyərləndirilmədiyini göstərə bilər. Tənqidi düşüncə və yaradıcılıq bacarıqları yalnız tələbələr və müəllimlər tərəfindən qiymətləndirilib. Hər iki bacarıq müəllimlər tərəfindən tələbələrdən daha yüksək qiymətləndirilib, bu isə müəllimlərin bu sahələrdə tələbələrin bacarıqlarını daha yaxşı gördüklərini və ya tələbələrin özlərini daha təvazökar qiymətləndirdiklərini göstərə bilər.

Ümumilikdə, tələbələr öz bacarıqlarını işəgötürənlər və müəllimlərlə müqayisədə nisbətən yüksək qiymətləndirirlər. Müəllimlər və işəgötürənlər arasında isə bacarıq qiymətləndirmələrində müəyyən fərqlər mövcuddur ki, bu da ali təhsil proqramlarının tələbələrin real iş mühitinə uyğun hazırlıq səviyyəsinin qiymətləndirilməsində müxtəlif yanaşmalar olduğunu göstərir. Bu fərqliliklər ali təhsil prosesində əmək bazarının tələbləri ilə təhsil müəssisələrinin gözləntiləri arasında uyğunlaşma işlərinin gücləndirilməsinin vacibliyini vurğulayır.

Dissertasiya işinin **"Nəticə"** hissəsində göstərilir ki, regionşünaslıq ixtisası üzrə əmək bazarına uyğun hazırlıq yalnız nəzəri biliklərin mənimsənilməsi ilə məhdudlaşmamalı, həmin biliklərin real peşə situasiyalarında tətbiqini, əsaslandırılmış qərar qəbulunu, məsuliyyəti və nəticələrin qiymətləndirilməsini əhatə etməlidir.

Regionşünas mütəxəssisin peşə profili ixtisaslaşdığı regionun dili, tarixi, mədəniyyəti, dini, coğrafiyası, demoqrafiyası, siyasi və iqtisadi sistemi haqqında biliklərlə yanaşı geosiyasi təhlil, mədəniyyətlərarası kommunikasiya, diplomatik sənədləşmə və rəqəmsal informasiya savadlılığını birləşdirməlidir.

Tələbə, müəllim və işəgötürən cavablarının müqayisəsi praktik tətbiq, problem həlli, ünsiyyət, analitik və tənqidi düşüncə sahələrində inkişaf ehtiyacının mövcud olduğunu göstərmişdir. Bu nəticələr tədqiqata cəlb edilmiş respondent qruplarına aiddir və daha geniş seçmələrdə yenidən yoxlanılmalıdır.

Sərişt ələrin formalaşdırılmasının səmərəliliyi məqsəd-diaqnostik, məzmun, təşkilati-metodik, monitorinq-qiymətləndirmə və nəticə-korreksiya komponentlərinin əlaqəli tətbiqindən, müəllimin peşəkarlığından və universitet-işəgötürən əməkdaşlığından asılıdır.

Keys, problem və layihə əsaslı öyrənmə, tədqiqat tapşırıqları, simulyasiya, istehsalat təcrübəsi və auditoriyadankənar fəaliyyət tələbələrin biliyi tətbiq etməsinə, komanda işinə, ünsiyyətinə və müstəqil qərarverməsinə imkan yaradır.

Sərişt ələrin qiymətləndirilməsi test nəticəsi ilə məhdudlaşmamalı, portfolio, analitik hesabat, praktik tapşırıq, layihə, müşahidə, özünüqiymətləndirmə və işəgötürən rəyini birləşdirən çoxmənbəli monitorinq sistemi əsasında aparılmalıdır.

Tədris planlarının və respondent cavablarının təhlili regionşünaslıq proqramlarında praktik tapşırıqların, ixtisasa xas analitik nəticələrin, rəqəmsal sərişt ələrin və işəgötürənlərlə davamlı geribildirimin gücləndirilməsinə ehtiyac olduğunu göstərir.

Əmək bazarına yeni daxil olan məzunların uyğunlaşmasını asanlaşdırmaq üçün təcrübə bazaları, real iş tapşırıqları, mentorluq və karyera dəstəyi təhsil proqramının ayrılmaz hissəsinə çevrilməlidir.

Tədqiqat nəticələrinə əsasən aşağıdakı praktik **təkliflər** irəli sürülür:

1. Regionşünaslıq proqramları üzrə əmək bazarının tələbləri hər il karyera mərkəzi, keyfiyyət təminatı strukturu, kafedra və işəgötürənlərin iştirakı ilə təhlil edilməli, nəticələr sərişt xəritəsinə və sillabuslara daxil edilməlidir.

2. Tədris planlarında region dili, geosiyasi və müqayisəli regional təhlil, diplomatik yazışma, analitik hesabat hazırlama, məlumatların vizuallaşdırılması və rəqəmsal mənbələrin yoxlanılması üzrə praktik nəticələr gücləndirilməlidir.

3. Keys, layihə, problem əsaslı öyrənmə, simulyasiya, sahə araşdırması və işəgötürənlərin verdiyi real tapşırıqlar hər semestr üzrə planlaşdırılmalıdır.

4. Sərişt ələrin qiymətləndirilməsi üçün səviyyəli rubriklər, portfolio, layihə, analitik hesabat, təcrübə gündəliyi və işəgötürən rəyi birlikdə tətbiq edilməlidir.

5. Kafedra, keyfiyyət təminatı strukturu, karyera mərkəzi və təcrübə şöbəsinin birgə monitorinq qrupu yaradılmalı, nəticələr əsasında fərdi inkişaf və proqram korreksiyası aparılmalıdır.

6. Tələbələrin ictimai və könüllü fəaliyyəti ümumi çağırış kimi deyil, ünsiyyət, liderlik, komanda işi və mədəniyyətlərarası kommunikasiya üzrə əvvəlcədən müəyyən edilmiş təlim nəticələri, tapşırıqlar və reflektiv hesabatlarla əlaqələndirilmiş proqram şəklində təşkil edilməlidir.

7. Müəllimlərin səriştəyönlü təlim, rəqəmsal pedaqogika, qiymətləndirmə rubrikləri və əmək bazarı ilə əməkdaşlıq sahəsində davamlı peşəkar inkişafı təmin edilməlidir.


8. İstehsalat təcrübəsi real peşə tapşırıqları, mentorluq, aralıq geribildirim və yekun işəgötürən qiymətləndirməsi ilə gücləndirilməlidir.

9. Gələcək tədqiqatlarda müxtəlif universitetləri və regionları əhatə edən daha geniş, təbəqələşdirilmiş seçmə tətbiq edilməli, modelin effektivliyi uzunmüddətli eksperiment və məzun izləmə məlumatları ilə yoxlanılmalıdır.

Dissertasiyanın məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində əhatə olunmuşdur:

1. Do university graduate competences match post-socialist labour market demands: Evidence from Azerbaijan // Journal of Teaching and Learning for Graduate Employability, - 2021, 12 (2), - s. 332–347.
2. Challenges of online teaching // 4th International Novruz Conference on Scientific Research, - 2021, - s.258
3. Impact of Teamwork and Collaborative Learningon Leadership Skills // 3 rd International Conference of Khazar Scientific Research, - 7-9 yanvar, - 2022, - s.161-162
4. Bakalavrların peşəkar səriştələrinin formalaşması problemləri // - Bakı: ADPU-nun "Tarix, insan və cəmiyyət" elmi-nəzəri və elmi-metodik jurnalı, - 2023. № 1, - s. 22-30.
5. Komandada fəaliyyətin tələbələrin ünsiyyət bacarıqlarının inkişafına təsiri // - Bakı: Azərbaycan məktəbi, - 2023. № 2, - s.73-79.

6. XXI əsrin səriştələri: gözlənilən nəticələr // - Bakı: Pedaqoji Universitetin xəbərləri, humanitar, ictimai və pedaqoji elmlər seriyası, - 2023. №2, - s. 127-136.
7. The role of higher education institutions in formation of the skilles demanded in the labor market // Global science: prospects and innovations. Proceedings of IV International Scientific and Practical Conference. Liverpool, United Kingdom, - 1-3 December, - 2023, - pp.387-393.
8. Public school rankings in Azerbaijan from education Managers' Perspectives // proceedings of XXV Republican scientific conference of PhD Students and Young Researchers (NASCO XXV), - 2023, - s. 472-477
9. Modern Eğitim Sisteminde Profesyonel Uzmanların Eğitimi // - Bakı: Akademik tarih ve düşünce, -2023. №2(10), - s. 545-554
10. Azərbaycan Respublikasında ali məktəb məzunlarının məşğulluq məsələləri // – Bakı: Azərbaycan məktəbi, - 2023. № 4, - s.65-71
11. Regionşünaslıq ixtisası üzrə tələbələrdə sərişələrin formalaşdırılması. // - Bakı: Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, - 2024. №1, - s.84-90.



Dissertasiyanın müdafiəsi 18 dekabr 2026-cı il tarixdə saat 1400 da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi, 41 (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası (https://www.khazar.org/) Xəzər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 12 noyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 02.11.2026

Kağızın formatı: A5

Həcm: 44.846 işarə

Tiraj: 100 nüsxə